# ÇALDIRANA GEDƏN YOL

## romandan səhifələr



*Hüseynbala MİRƏLƏMOV*

*Hüseyn Lələ bəy Şahın hər bir anına göz qoyur, diqqət göstərirdi. Bəzən, Şah İsmayıl Hüseyn Lələ bəyin həddindən artıq diqqətcilliyindən, onu nəzarətdə saxlamağından dilgir olurdu. Az qala bir neçə dəfə Hüseyn Lələ bəyə onu izlədiyinə görə iradını bildirmək istəmişdi. Ancaq, buna yol verməmiş, özü öz qəzəbini boğmuşdu. Çünki, o, gözünü açanda, atasının əvəzi kimi görmüşdü Hüseyn Lələ bəyi. Hələ ağlı kəsəndən sonra görmüşdü ki, Hüseyn Lələ bəy dəfələrlə Aləmşah bəyimi oğlanları ilə birgə ölümlə üz-üzə gələrək müdafiə eləmişdi. İsmayıl da, qardaşları da təqiblərdən qaçıb qurtulmaq üçün bəzən Hüseyn Lələ bəyin və bir neçə müridin müşayəti ilə gecələr at üstündə hərəkətdə olmuş, əyalətdən- əyalətə keçmişdilər.*

*Aləmşah bəyim oğlanlarını qucağına çəkib başlarını sığallayır, təqib həyəcanlarını gizləyir, Hüseyn Lələ bəyi göstərib onlara təskinlik verərdi. İndi bütün bunlar hamısı İsmayılın yaddaşında çözələnir, birər-birər xəyalına gəlirdi. O da xəyalındakı Hüseyn Lələ bəyin ətəyindən tutub onun qucağına qalxmaq istəyir, lələsi də onu qucağına alıb, başını sinəsinə sıxır, nəvazişlər göstərirdi...*

*Bütün bunları İsmayıl necə xatırlamaya bilərdi. Elə bu səbəbdən də Hüseyn Lələ bəyin gördüyü işlərin heç birisinə sorğu, sual olmazdı.*

*Doğrudur, bir dəfə Şah İsmayıl Təbrizdə olarkən "Səkkiz cənnət sarayı"nın bağçasında ləlsəi ilə qarşılaşmalı olmuşdu. Taclı ilə axşam çağı hər vaxtkı görüşünə çıxmışdı. O, Taclıya yaxınlaşmaq istəyərkən, qız səksənmişdi. Bir-iki addım geri atıb dayanmış, diqqətlə ətrafa nəzər salmışdı. Gənc şah qılıncı çəkib, ağaclar arasında səs gələn tərəfə yeridi. Və qarşısında Hüseyn Lələ bəyi gördü:*

*(Əvvəli ötən saylarımızda)*

-Lələ bu sənsən?

-Bəli, qurbanın olum mürşidim, mənəm.

-Lələ, onu bilirsənki mən indi uşaq deyiləm?

-Bilirəm, şahım.

-Bəs onda...

-Bilirəm Şahım qəzəblənirsən ki, mən səni izləyirəm.

-Hə elədir.

-Şahım, bəla böyükləri daha asan yaxalayır, nəinki kiçikləri.

-Deyirsənki hələ də sarayın içində təhlükə gəzir?

-Ehtiyatlı igidin anası ağlamır şahım.

O vaxt Hüseyn Lələ bəy Ağqoyunluların bəd niyyətli adamlarının təbrizdə gizlin dolaşdıqlarını Hüseyn Lələ bəy bilirdi və bu barədə də divanda kifayət qədər söhbət olmuşdu. Bundan sonra bir neçə şübhəli şəxsi tutub sorğu-sual etmişdilər. Amma, əsaslı bir məsələ ortalığa çıxmamışdı.

İndi Hüseyn Lələ bəy Şirazda Sultan Muradın sarayında yenə şeyxinin oğlunu, yəni, İsmayılı gözdən qoymurdu. Əslində Hüseyn Lələ bəy İsmayılla İncəbelin görüşünə razılıq verəndə şahın düçar olduğu eşq bəlasını yüngülləşdirmək məqsədi güdmüşdü. Amma, bu da baş tutmamışdı. Çünki, şah Taclı bəyimə sonsuz sevgi bəsləyirdi. Və indi onun gəlişini səbirsizliklə gözləməkdə idi. Hüseyn Lələ bəy də Şahın belə tezliklə məhəbbət sevdasına alüdə olmasını şübhəsiz heç pis də qarşılamırdı. Ancaq, dövlət işlərinin belə gərgin məqamında bunu vaxtsız fəsil, vaxtından əvvəl gəlmiş bahar hesab edirdi.

Şahın divan işlərinə gəlməməsi son hadisələrin Səfəvi əmrlərinin iştirakı ilə müzakirə olunmaması, təkcə Hüseyn Lələ bəyi yox, elə digər əmrləri də nigaran qoymuşdu. Yenə əmrlər Şahın yanına Hüseyn Lələ bəyin göndərilməsini məsləhət bilmişdi.

Səhər çoxdan açılmışdı. Hava buludlu olduğundan hiss olunmurdu ki, vaxt günortaya yaxınlaşır. Hüseyn Lələ bəy xeyli tərəddüddən sonra Şahın istirahət hücrəsinə daxil oldu. Şah diz üstə xalçanın üstündə oturmuşdu. Qabağında qələm, davat vardı. Çox sürətlə nə isə yazırdı. Demək olar ki, Hüseyn Lələ bəyin içəri girdiyindən heç xəbəri də olmadı. Birdən başını qaldırıb Hüseyn Lələ bəyi görəndə təəcüb qarışıq nigaranlıqla onun üzünə baxdı. İlkin ağlına gələn bu oldu ki, bəlkə Təbrizdən gələn karvanın başında bir iş var. Çünki, Şah bilirdi ki, hər vaxt onun yanına icazəsiz ancaq Hüseyn Lələ bəy gələ bilər. Hüseyn Lələ bəy də vacib bir məsələ olmasa, yersiz onu narahat etməzdi.

Şah yazmağını dayandırdı. Qarşısındakı rəhili, kağızı bir tərəfə çəkdi.

-Lələnin gəlişi həmişə xeyir xəbər gətirib, bu dəfə də gümanlıyam ki, xeyir olar.

Şah bunu desə də nigaranlığını gizlədə bilmədi. Hüseyn Lələ bəy də onu intizarda çox qoymadı.

-Başım qurban olsun mürşidimə. Heç bir bədlik yoxdur. Təbrizdən gələn karvan da bu gün axşama yəqin buraya çatar.

Şah karvan məsələsindən arxayın oldu.

-Bəs onda nə əcəb Hüseyn Lələ bəy bizi ziyarət edib?

-Başım qurban olsun mürşidimə. Karvan gəlir, şahın doğmaları, əzizləri də gəlir. Gözləntisi də mübarək qədəmləri ilə şahın intizarına son qoyacaq. Bu da yəqin ki, xeyli vaxt aparacaq.

-Vacib olan hansı işlər var ki, Lələ?

-Doğrusu, şahı narahat etməkdə məqsəd budur ki, əmrlərlə bir müşavirə keçirilsin. Əgər təzə yürüş olacaqsa, hərbi hazırlıq işlərinə soyuqluq vermək olmaz. Yox əgər..

Hüseyn Lələ bəy sözünün gerisini gətirmədi. Gözlədi ki, Şah münasibətini bildirsin.

Şah yerindən qalxıb otaqda gəzinirdi. O, Hüseyn Lələ bəyin dediklərinə sanki əhəmiyyət vermirmiş kimi dilləndi:

-Lələ, doğrusunu bilmək istəsən, əgər bizi müharibəyə çəkən olmasaydı, mən bundan sonra qılıncımı qınından çıxarmazdım. Son bir ildə Əlvənd Mirzə ilə Sultan Muradla, digər bizə düşmən kiçik əyalət başçıları ilə nə qədər savaşlarımız olub. Biz nə qədər qırğından keçmişik, nə qədər qan tökmüşük. Özün yaxşı bilirsən ki, bizim Qızlıbaşlar da nə qədər təlafat verib. Axı, bu ölən insanların hər biri bir ailənin övladıdır. Döyüşdə həlak olan hər kəsin arxasınca analar ağlayır, bacılar göz yaşı tökür, çoxlarının uşaqları yetim qalır.

Hüseyn Lələ bəy gördü ki, Şah bu sözləri dedikcə necə ağrı keçirir, necə dərdli-dərdli, necə yanayana, yaxıla-yaxıla danışır. Ona elə gəldi ki, bir az da gec dillənsə Şah hönkür-hönkür ağlayacaq. Ona görə də özü Şaha yaxın getdi, əlini əvvəlcə onun çiyninə qoydu, sonra iki əlini onun üz-gözündə gəzdirdi.

Şah Hüseyn Lələ bəyin əllərinin hərarətini üzündə, gözündə boyun-boğazında hiss etdikcə, uşaqlıq çağlarında qalmış Lələsinin təmasını təzədən hiss elədi. Sanki, az qala yaddaşından da silinməkdə olan atasının xəyalı Hüseyn Lələ bəyin timsalında onun gözlərinin önündə göründü.

-Şahım, başımız sənə qurban olsun. Böyük bir məmləkətin gözünü tikəcəyi sənsən. Biz hamımız ən ağır döyüşə də sənin adınla gedirik. Adın çəkiləndə, Qızılbaşların qoluna qüvvət gəlir, dizlərinə taqət yeriyir. Biz hamımız sənin timsalında təkcə özümüzün yox, bütün məmləkətin xilaskarını görürük.

-İndi nə məsləhət edirsən? Lələ... - Şah qısaca soruşdu. Özü də deyəsən Lələdən cavab istəmək fikrində də deyildi.

Hüseyn Lələ bəy başa düşdü ki, son döyüş şahın qələbəsi ilə, Sultan Muradın biyabırçılıqla döyüşdən qaçması ilə qurtarsa da, meydanın qan gölünə dönməsi Şahı pis sarsıdıb. Ona görə də başa düşdü ki, şahı təzədən döyüşə çəkmək, təzə hərbi yürüş hazırlığına təhrik etmək işin xeyrinə deyil. O, açıq-aşkar hiss elədi ki,bir müddət hərbi yürüşlərə fasilə vermək vacibdir.

Hüseyn Lələ bəy tərəddüd eləyirdi. Belə vəziyyətdə şahı tək qoyub getmək də istəmirdi. Amma, onu da başa düşürdü ki, Şaha vacib istirahət lazımdır.

-Başım qurban olsun sənə, Şahım. Axşama qədər karvan gələr, qardaşınla, ananla görüşərsən. İnanıram ki, əhvalın çox yaxşı olacaq. Bircə o var ki, dövlətin idarə işlərini məsləhət bildiyin aqil vəzirlərə həvalə et, qoy divan işlərini onlar özləri aparsınlar.

Şah başını qaldırdı və Hüseyn Lələ bəyin üzünə razılıqla baxdı. Bunu Hüseyn Lələ bəy də hiss elədi, anladı ki, digər vacib məsələləri də elə buradaca həll etmək olar: -Şahım, Əmir Zəkəriyyə bir qədər yaşlanıb, dövləti idarə etmək onun üçün çətin olar. Qoy, Xacə Şərafəddin dövləti işləri idarə etməkdə onun yardımcısı olsun.

-Şahım, buradan çox da uzaq da olmayan Qum şəhərinə yerimizi dəyişsək, daha yaxşı olar. Həm iqlim, həm də təhlükəsizlik baxımından Qum, Şirazdan daha üstündür.

Qum haqqında Şah İsmayılın xəbəri vardı. Qışı Qumda keçirməyin üstünlükləri haqqında dünən Əmir Zəkəriyyə ilə də söhbət eləmişdi. İndi Hüseyn Lələ bəyin qış istirahətini Qumda keçirtmək təklifini eşidəndə yenə razılığını bildirdi.

-Bəli, Təbrizdən gələn karvanı qarşılayaq. Bir-iki həftədən sonra Quma köçərik, qışı da orada qalarıq.

-Allah Şahımızın zəkasını hər vaxt işıqlı eləsin, ağlının dəryası o qədər aşıb-daşsın ki, bizim də yolumuz qaranlığa düşəndə onun ağlının, zəkasının sayəsində hərəkət edə bilək.

Şah Hüseyn Lələ bəyin dualarından xoşhal olduğunu başının razılığı ilə bildirdi. Hüseyn Lələ bəy gördü ki, bayaqkı tutqun şahın əvəzində, indi ruhu özünə qayıtmış, ağıllı gözləri ilə dünyanı seyr edən cavan hökmdar baxır.

-Hə, Lələ az qala unutmuşdum, karvan əhlinin hədiyyələrini də hazırlayın. Hər kəs öz adına layiq hədiyyə alsın.

Hüseyn Lələ bəy daha müharibə qovğaları haqqında danışmağı artıq bildi. Çünki, Sultan Murad artıq çox uzaqlarda idi. Hətta, Hüseyn Lələ bəy öyrənmişdi ki, Sultan Muradın ətrafında qalmış yeddi min nəfərlik qoşunun da xeyli hissəsi fərarilik etmiş, onun ətrafından qaçıb dağılmışdı. Belə köməksiz və aciz vəziyyətdə qalmış Sultan Murad çətin bir də döyüş üçün geriyə qayıtsın. Bircə Xorasan tərəflərdən nigarançılıq vardı, daha bunu da Şaha deyib onun əhvalını pozmaq istəmədi.

Onsuz da bundan sonra Hüseyn Lələ bəy nə danışsa da, Şahın xəyalı çox uzaqlarda olduğundan heç onu eşitməyəcəkdi. Elə Hüseyn Lələ bəy də anlayırdı ki, şahın xəyalı Təbrizdən gələn karvanın yanındadır, o, karvanın üstüncə uçur. Həqiqətən Hüseyn Lələ bəy indi şahın nəbzini tutsaydı, onun necə həyəcanla döyündüyünü də hiss edərdi.

Birdən Hüseyn Lələ bəy şahın sağ qolundan tutdu.

-Gedək, Şahım. Təbrizdən gələn karvan indilərdə Şiraz darvazalarına yetişər.

Bayaqdan Şah özü bunu demək istəyirdi. Odur ki, təklif ürəyindən oldu. Ona görə də - gedək, - dedi və özü qabağa düşdü.

*(Birinci hissənin sonu)*